**2020-ci il oktyabrın 18-i tariximizə daha bir şanlı gün kimi yazıldı: Cəbrayıl rayonunda yerləşən əsrlərə şahidlik edən, qərinələrlə kommunikasiya vasitəsi kimi böyük rol oynayan, Azərbaycan ellərinin cənubdan Qarabağa gedən köç yolunun əsas qovşağı kimi tanınan Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən müharibəsində möhtəşəm zəfərlərə imza atan Müzəffər Ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu. Bu müjdəli xəbəri Azərbaycan xalqına Prezident, Ali Baş Komandan cənab İlham Əliyev çatdırdı: "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!" – deyə, ölkə başçısı "Twitter" səhifəsində paylaşdı.**



# Xudafərinin xilas günü



## *Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağı ucaldılmasından 2 il ötür*

İşğaldan azad edilən Xudafərin körpüsünün yerləşdiyi ərazilərin internetdəki fotolarına, videolarına hər dəfə baxdıqca bu yerlərdə düşmənin 27 il ərzində, necə deyərlər, daşı daş üstə qoymadığı açıq-aydın görünür. Yağı bu torpaqda ancaq səngərlər qazıb, istehkamlar qurub, evləri dağıdıb, bağ-bağçaları viran qoyub, qəbiristanlıqları, tariximizə şahidlik edən maddi-mədəni abidələri ya tamamilə yer üzündən silib, iztozunu itirib, ya da xarabalığa çevirib. Gözə dəyən hər dağ-dərə, yol-riz, yaşıllıqlar barbarlığın qurbanı olub…

Artıq iki ildir ki, əsirlikdən xilas edilən, düşməndən təmizlənən o yer-yurdların fotolarına, videolarına dönə-dönə, təkrar-təkrar baxanda yaralanan, paralanan yurdun yenicə qaysaq bağlayan yarasından hələ də sanki al-qırmızı qan süzüldüyünü düşünmüşəm, bu ağrı-acını canımda, iliyimdə hiss etmişəm. Neçə-neçə didərginin, köçkünün bir vaxtlar tikib-qurduğu, sonradan məcburən qoyub gəldiyi doğma odocağının qəsbkarlıq zamanı necə viran edildiyindən televiziya ilə xəbər tutanda yaşadığı dəhşətli anların şahidi olmuşam, çəkdiyi ah-nalədən sarsılmışam.

Bu torpaqlar işğalda olan illərdə yolum Naxçıvana düşəndə İran səmtdən bu tərəfə–əsirlikdə qovrulan yurd yerlərimizə həsrətlə, yana-yana baxmışam. Arazboyu ermənilərin xarabalığa çevirdikləri Azərbaycan kəndlərində evlərin kalafalarının qaraldığına, bağ-bağçaların quruyubsovulduğuna həyəcanla, ürək ağrısı ilə tamaşa etmişəm və dövrün, zamanın haqsızlığından yanıb-yaxılmışam...

O xaraba evləri, kol-kos içində batan, görünməz olan o yol-cığırları, nişanəsi belə qalmayan, çəpərləri dağılan o bağ-bağçalara baxanda, sözün düzü, ən çox Tapdıq kişini xatırlamışam. O Tapdıq kişini ki, bir nəsildən olduğumuz dədəbabası Qərbi Zəngəzurdan, doğulduğum Qarakilsədən 1915–18-ci illərdə ermənilər tərəfindən didərgin salınmışdı, gəlib Cəbrayılda məskunlaşmışdı. Tapdıq kişi də o dövrün qaçqınlığından illər sonra bu rayonda dünyaya göz açmışdı, burada yurd- yuva qurmuşdu.

Uşaqlığını, gəncliyini yaşadığı sirli-sehrli dünyasından–kəndindən, Xudafərindən tamarzı ayrıldı Tapdıq kişi... Qəfil köçkünlükdən neçə gün əvvəl, ermənilərin hücumları genişlənən vaxt dağ-yamac boyu gəzəndə beyninə qəfil, gözlənilməz bir fikir gəldi: "Buradan getsəm, görəsən, bir də nə vaxtsa, bu yerə qayıda biləcəyəm?!. Bura mənim yurdum, torpağım deyil məgər?!. Haçan ürəyim istəsə, o vaxt!..".

Görünür, sabah-birisigün nə olacağı ürəyinə damıbmış Tapdıq kişinin... Ürəyinə damanlar başına gəldi... Beləcə kənddən o çıxan çıxdı. Bir daha geri dönmək, günlərin, ayların üzüdönmüş ayrılığının ayırdığı kəndinə getmək, doğma torpağına qovuşmaq qisməti olmadı, yurda dönmək bəxtəverliyini, xoşbəxtliyini yaşaya bilmədi.

...Fotolarda, videolarda görünən dağların ətəyindəki evlərin kalafalarına baxa-baxa ahıl vaxtında didərginlik taleyi yaşayan Tapdıq kişinin acı taleyi gözlərim önündən çəkilmir. Sumqayıtda, Tağıyev qəsəbəsində məskunlaşan, elə burada – köhnə, uçulub-dağılan zavodun həyətində dediyi sözləri də indi yaxşı xatırlayıram: "Ermənilər bizim torpağımızı əlimizdən almaqla bərabər, arzu-xəyallarımızı, istəklərimizi də puç etdilər... O yerləri həsrətlə xatırlayıram, yağı caynağında qalan yurdlarımıza qayıdacağımıza inanıram... Bilirəm ki, indi babalarımızın qərib dolaşan narahat ruhları, allı-güllü yaylaqlar, qəribsəyən dağ cığırları, viran qalan bağ-bağça, əsir düşən məzarlar dağa-daşa haray salıb fəryad edir, ah-nalə qoparıb bizdən imdad diləyir".

... Tapdıq kişi yurdunun azadlığa qovuşacağı günü görməsə də, yəqin ki, ruhu indi dinclik tapıb. Taleyinə Vətənə dönmək qisməti yazılmasa da, övladları, nəvələri bu xoşbəxtliyi yaşayırlar...

Yazının bu məqamında Xalq yazıçısı Elçinin "Mahmud və Məryəm" romanından neçə illər bundan əvvəl oxuduğum və yaddaşımdan heç vaxt silinməyən, həqiqətə söykənən bir əhvalatı xatırlayıram: Şahın sarayına gətirilən xanəndə yanıqlı-yanıqlı oxuyur. Səsindəki fəryad, kədərqəm ürəkləri parçalayır... Bu həsrət dolu nalə şahı düşünməyə vadar edir: Görəsən, bunun səbəbi nədir? Axı onun gün-güzəranı yaxşıdır, bir kimsə də cəsarət edib incitmir...

– Oğul, səsindəki bu yanğı nə ilə bağlıdır? Bəlkə Vətəndə qalan ata-ananın, bacı-qardaşının həsrətindən belə qovrulursan?

– ...

–Bəlkə sevgilinin intizarını çəkirsən?

– ...

– Başqa nə səbəb ola bilər, axı?!.

– Şah, o dağların o üzündə Vətənim qalıb. O Vətənin həsrəti məni qovurur, yandırır, şah... Qurban olum, burax gedim Vətənimə... Onun bir udum havasını ciyərlərimə çəksəm, bir ovuc suyundan içsəm, üzümü torpağına sürtsəm, özümü dünyanın ən xoşbəxti, ən bəxtəvəri sanaram, şah...

***

Möhtərəm Prezidentimiz o dağların o üzündə qalan Vətəni yağı caynağından xilas etdi. Dövlət başçısı dağların o üzündə qalan yurdun yaşı min illərlə hesablanan tarixini düşmənin pozmasına imkan vermədi...

Ali Baş Komandanımız Hindistandan başlayaraq, Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa dövlətləri ilə Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük rol oynayan, ölkəmizin memarlıq sənətinin bəzəyi sayılan möhtəşəm tarixi abidəmizi – memarlıq məktəbinin bu əzəmətli nümunəsini, memarlarımızın müstəsna mühəndislik bacarığını ifadə edən bu ən gözəl, mükəmməl əsəri yenidən xalqa qaytardı.

Adını Azərbaycan tarixinin şanlı səhifəsinə yazdırmağa qadir sərkərdəmiz İlham Əliyev, yaşa, var ol. Bu xilaskarlıq missiyanız yüz illərlə, min illərlə unudulmayacaq!

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**